# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 sentyabr tarixli 77 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 sentyabr tarixli 77 nömrəli Qərarının 3-cü hissəsində “20 faizi ödənildikdə,” sözlərindən sonra “Cəmiyyətə əvəzsiz olaraq verilmiş kənd təsərrüfatı texnikaları istisna olmaqla” sözləri əlavə edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«29» aprel 2019-cu il

№ 54